# İstedadlı uşaqların təlimə münasibəti

**Mətləb Bayramov**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** b.metleb@box.az

**Rəyçilər:** psixol.ü.f.d., dos.N.T. Rzayeva,
psixol.ü.f.d., dos. M.C. İsmayılova

**Açar sözlər:** istedadlı uşaqlar, dərsdənkənar motivasiya, təlimdə geridə qalma
**Ключевые слова:** талантливые дети, внешкольная мотивация, переподготовка в обучении
**Key words:** talented children, extracurricular motivation, a lag in training

İstedadlı uşaqlar məktəb məkanına ayaq basanda müxtəlif paradokslarla rastlaşırlar. Onlardan ikisi xüsusilə önəmlidir. Birinci paradoks qeyri-adekvat təlim uğurları sindromu fonunda formalaşır. İkinci paradoks müəllimlərin istedadlı uşaqlara münasibəti əsasında əmələ gəlir və sosial – psixoloji məziyyətləri ilə seçilir. İstedadli uşaqların təlim uğurlarına (uğursuzluqlarına) görə tipologiyasi hələ sistemli öyrənilməyib. Məktəb müşahidələri kökündə onları iki qrupa A. və B. qruplarına ayırmaq olar.

A qrupu–təlim uğurları ilə seçilən istedadlı uşaqlar bu qrupa daxildir. Ünsiyyətlidirlər. Müəllimlərin gözlərində imicləri də, reytinqləri də yüksəkdir. Məktəbdə özlərinin yaradıcılıq uğurları ilə sayılıb – seçilən şagirdlərdir. Müxtəlif olimpiadalarda uğurla çıxış edirlər. Onların bir çoxunun səsi –sorağı televiziya və radio verlişlərindən gəlir.

Psixoloji araşdırmalarda B qrupu daxilində təlimdə geri qalan istedadlı uşaqların üç yarımqrupu ayırd edilir.

$B_1$ - bu qrupa daxil olan istedadlı uşaqlar təlimdə geri qalsalar da, məktəbdə onların istedadlı olması qəbul olunur. Müəllimlərin fikrincə, onlar qabiliyyətli olduqları üçün daha yaxşı oxuya bilərlər. Ancaq oxumurlar. Müəllimlər bu uşaqların təlimdə geri qalmasını onların tənbəllik etməsi ilə, dərslə maraqlanmaması və öz qüvvələrinə inanmamaları ilə izah edirlər. Ancaq məsələyə psixoloji ölçülərlə yanaşmırlar və onların təlim uğursuzluqların əsl səbəblərini uzun müddət açıqlaya bilmirlər. Lakin sinifdən sinfə keçdikcə, onların akademik problemləri də mürəkkləbləşir : onlar çox vaxt açıq - aşkar təlimdə geri qalırlar.

$B_2$ - bu uşaqların istedadları ümumiyyətlə məktəbdə aşkarlanmır və qəbul olunmur. Onları məktəbdə qabiliyyətsiz hesab edirlər, lakin bu uşaqları etibarlı metodlarla öyrənəndə məlum olur ki, onlar yüksək intellektual inkişaf səviyyəsi ilə fərqlənirlər.

$B_3$ - bu uşaqları bir qayda olaraq, orta səviyyəli uşaqlar hesab edirlər.Onlar «3» qiymətlə də olsa, güc-bəla oxuyurlar. Lakin bu uşaqları diqqətlə müayinə edəndə məlum olur ki, onlar istedadlıdırlar, lakin E.İ.Şeblanovanın qeyd etdiyi kimi, öz potensiallarını reallaşdıra bilmirlər. Təlim tapşırıqları mürəkkəbləşdikcə onların da çətinlikləri öz-özünə artır, potensial imkanları isə, əksinə, köklü surətdə pisləşir.

Psixoloji araşdırmalarda təlimdə geri qalan uşaqların ($B_1$, $B_2$, $B_3$ qrupları) xüsusiyyətləri tipoloji ölçülərlə təhlil olunanda, onlar üçün səciyyəvi olan bir önəmli fenomen – dərsdənkənar motivasiya fenomeni diqqəti xüsusilə cəlb edir.

İstedadlı uşaqlar səhərdən axşamacan sevdikləri işdən doymurlar. Sevdikləri işlərə fərəhlə sərf etdikləri günlər–saatlar onların yaradıcılıq ömürlərinin ilhamlı səhifələridir. Lakin

ilhamla yaradıcıq axtarışları bir çox hallarda onların təlim fəaliyyətinə əks təsir göstərməyə başlayır. Elə bu kökdə də təlimdə geri qalan şagirdlər çevrəsində istedadlı uşaqlara istər–istəməz az təsadüf olunmur. Öz-özünə qeyri-adi psixoloji paradoksla rastlaşırıq : qurub-yaratmaq əzmi ilə ilhamla bir ömür yaşayan şagird ev tapşırıqlarına əhəmiyyət vermir, dərslərini vaxtlı – vaxtında hazırlamır.

Dərsdənkənar motivasiya fenomenin iliyi də, qanı da bilavasitə intrinsiv faktorlarla, şəxsiyyətin dispozisiyaları ilə bağlıdır. Bu motivasiyanın qaynaqları belədir: tələbat-maraq-meyl. Bu qaynaqların axarında isə istedadlı uşaqların bir çoxu üçün təlim tələbatı özünəməxsus kvazi tələbata çevrilir, ən yaxşı halda ikinci dərəcəli tələbata, bəzi hallarda isə hətta beşinci dərəcəli tələbata çevrilir. Məktəb isə bu konteksdə təlimdə geri qalan şagirdlərin önəmli dəstəsi ilə rastlaşır və problemi konseptual ölçülərlə həll etməlidir.

Dərsdənkənar motivasiya ilk baxımda psixopedaqoji fenomen kimi səslənsə də, əslində sosial-psixoloji fenomendir. Bu fenomen istedadlı uşağın asudə vaxtının psixoloji parametrləri ilə bilavasitə bağlıdır.

İstedadlı uşaqlar bəzən asosial qruplara qoşulurlar və qoşulanda bu qruplar onların həyatında məhvedici rol oynayırlar. Əksər hallarda isə onların məktəbdənkənar mühitdə oturub–durduğu "uşaqlar" sənət yoldaşları olurlar. Onun ünsiyyət dairəsi də referent qrupu da sənət yoldaşlarından ibarət olur.

İstedadlı uşaqların referent qrupu istər pedaqoji psixologiya, istərsə də sosial pedaqoji psixologiyada mahiyyətcə öyrənilməyib.

a) bu qruplar qeyri – formal qruplardır (qeyri rəsmi) qruplardır və "yoldaşlıq kodeksinə" söykənir.

b) istedadlı uşaqların referent qrupu onların həyatında "görünməyən kolloc" rolunu oynayır.

c) istedadlı uşaq uğur əldə etdikcə, bu kollec onun üçün şəxsi məna kəsb edir. Onlarda referent asılılığı yaranır, özünəməxsus motivasiya sxemi(attityudlar, davranış potternləri) əmələ gəlir.

Sinifdən kənar motivasiya fenomeni hələ psixopedaqogikada sistemli öyrənilməyib. Onun sosioloji (təhsilin sosiologiyası), məntiqi-metodoloji və tətbiqi problemlərinin araşdırılması son dərəcə aktualdır.

İstedadlı uşaqların təlimdə geri qalmalari aktual psixo - pedaqoji problemdir. Bu problemi inkişafetdirici təlim prinsipi kimi açıqlamaq üçün, hər şeydən öncə, onun psixoloji köklərini təhlil etmək gərəkdir.

Görəsən, təlimdə geridə qalma hansi amillərlə şərtlənir? İlk növbədə, şagirdin bilik, bacarıq və vərdişlərində əmələ gələn arakəsmələrlə, çatışmazlıqlarla! Bəs, bu arakəsmələr necə əmələ gəlir?

Müasir psixologiyada təlimdə geridəqalma təlimə qabillik baxımından təhlil edərək onun köklərini, ilk növbədə, şagirdin fikri fəaliyyətinin xüsusiyyətlərində axtarırlar. Şagirdin akademik uğurları bilavasitə onun idrak fəaliyyətinin səviyyəsini əks etdirir. Təlimdə geridə qalma, hər şeydən öncə, idrak fəaliyyətinin xüsusiyyətləri ilə şərtlənir. Müasir psixologiyada bu önəmli fakt şəxsiyyət baxımından təhlil olunur. Öz - özlüyündə aydin məsələdir ki, şagirdin təlimə münasibətini - şəxsiyyətin istiqamətə müəyyən olunan bu tutumlu amili nəzərə almadan təlimdə geridəqalmanın mahiyyətini açıqlamaq mümkün deyil.

Təlimdə geridəqalmanın köklərini araşdırmaq üçün xüsusi əhəmiyyətə malik olan iki inteqrativ kəmiyyətin – şagirdin idrak fəaliyyətinin və təlimə münasibətinin xüsusiyyətinin ayırd edilməsi məsələni tipoloji baxımdan açıqlamaq imkanı verir.

Nəzərdən keçirdiyimiz inteqrativ kəmiyyətlərin əsasında təlimdə geri qalan şagirdlərin aşağıdakı üç tipi müəyyən edilmişdir. (N.N.Muraekovski və b.)

**Birinci tip.** Şagird təlimə müsbət münasibət bəsləyir və özünün məktəbli mövqeyini qoruyub saxlayır, lakin idrak fəaliyyətinin aşağı səviyyədə olması ilə seçilir.

**İkinci tip.** Şagird idrak fəaliyyətinin nisbətən yüksək səviyyəsi ilə fərqlənsə də, təlimə mənfi münasibət bəsləyir, məktəbli mövqeyini qismən və ya tamamilə itirmişdir.

**Üçünçü tip**. Şagirdin həm idrak fəaliyyəti səviyyəcə aşağıdır, həm də o, təlimə mənfi münasibət bəsləyir. Şagird mövqeyini tamamilə itirmişdir.

Müəyyən edilmişdir ki, birinci və ikinci tip şagirdlər çox vaxt IV-V siniflərdən etibarən təlimdən geri qalmağa başlayırlar. Üçünçü tip şagirdlər isə elə I sinifdən başlayaq proqram materiallarını mənimsəməkdə çətinlik çəkirlər.

Şagirdlərin təlim uğursuzluqlarını necə aradan qaldırmaq olar? 70-ci illərdə, məktəblər üçün xüsusi əhəmiyyətə malik bu suala pedaqoji psixologiya da tipoloji yönümdə cavab verilmişdir. Tiplərin təsvirində də bu cəhət aydın nəzərə çarpır. Əgər I tip şagirdlərdə bu sahədə aparılacaq işin prinsipləri və məzmunu bilavasitə onların idrak fəaliyyətinin aktivləşdirilməsi ilə əlaqələndirilirdisə, II tip şagirdlərdə təlimə müsbət münasibətin formalaşdırılmasına xüsusi diqqət yetirildi. III tip şagirdlərdə isə həm birinci, həm də ikinci yönümdə iş aparmaq məsləhət görülürdü...

Müəyyən edilmişdir ki, istedadlı uşaqların təlimdən geri qalması tipoloji baxımdan II tipin fenomenologiyası ilə bağlıdır.Bu məsələni iki yönümdə açıqlamaq olar.

**Birinci yönüm**. İstedadlı uşaqların idrak fəaliyyətinin bəzi xüsusiyyətləri haqqında .

Psixoloji tədqiqatlar göstərir ki, istedadlı uşaqların təlim uğursuzluqları mahiyyət etibarilə onların idrak fəaliyyətinin səviyyəsi ilə şərtlənmir. Bu uşaqların intellekt əmsalı yüksək göstəricilərlə səciyyələnir. Lakin onların idrak fəaliyyətində təlim uğurlarına dolayısı ilə təsir göstərən müəyyən xüsussiyyətlər də özünü göstərir.

İstedadlı uşaqların psixoloji və sosial inkişafı eyni vüsətlə getmir. Onların intellektual inkişafı ilə psixomotor inkişafı arasında ziddiyyət müşahidə olunur. İstedadlı uşaqlarda diqqəti tənzim etmə sisteminin kifayət qədər inkişaf etməməsi müəyyən olunmuşdur.

**İkinci yönüm.** İstedadlı uşaqların təlimə münasibətinin psixoloji kökləri haqqında .

Qeyri-adekvat təlim uğurları sindromunun mahiyyətini açıqlamaq üçün onu təlim motivasiyası baxımında nəzərdən keçirmək lazimdir. İstedadlı şagirdlərdə təlim motivasiyasının formalaşması onlarda təlimə mənfi münasibətin əmələ gəlib bərqərar olmasında həlledici rol oynayır. Görəsən, istedadlı uşaqlarda təlimə mənfi münasibətin əmələ gəlməsini nə ilə izah etmək olar? Onların özlərinin böyük imkanlarını məktəb məkanında reallaşdıra bilməməsi, görəsən, nə ilə şərtlənir?

Səbələr çoxdur və müxtəlifdir. Hər şeydən əvvəl, qeyd edək ki, onları müəllimlər bir səpkidə, valideynlər isə başqa səpgidə izah edirlər. İstedadlı şagirdlərin isə öz arqumentləri var.

Müəllimlər bir qayda olaraq bu şagirdləri qabiliyyətli olmasına inanmırlar. Çox vaxt belə hesab edirlər ki, onlar məktəb təliminə hazir deyildirlər və oxumaq istəmirlər. Bir qayda olaraq valideynləri günahlandırırlar: guya valideynlər uşaqları işləməyə məcbur etmirlər.

Valideynlər isə çox vaxt belə hesab edirlər ki, müəllimlər uşaqlara yanaşmağın qaydalarını bilmirlər, uşaqları yerli – yersiz tənbəllikdə, təqsirlikdə təqsirləndirirlər.

Uşaqlar isə ... uğursuzluqlarında müəllimləri günahkar bilirlər, çox vaxt isə özlərini də nədə isə günahkar sayırlar.

Müəllimlərin, valideynlərin və şagirdlərin yozumlarını təhlil edəndə bir cəhət aydın nəzərə

çarpır: onlar ritorik və ənənəvi bir suala - «kimdir müqəssir?» sualına cavab axtarırlar. Halbuki araşdırılan fenomenin önəmli sosioloji, sosial psixoloji və pedaqoji səbələri var.

**Məqalənin aktuallığı.** İstedadlı uşaqlar ilk dəfə məktəbə qədəm qoyarkən müəyyən çətinliklərlə qarşılaşırlar. Həmin çətinliklərin öyrənilməsi və aradan qaldırılması baxımından məqalə aktual hesab oluna bilər.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarıtdir ki, istedadlı uşaqlarım ayrı-ayrı qruplar üzrə təsnifatına və onların problemlərinin qruplaşdırılmasına xüsusi diqqət yetirilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin tələbə və magistrantları istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Əlizadə Ə.Ə. "İstedadlı uşaqlar. Psixopedaqoji Məsələlər: Esseler, etüdlər". Bakı, 2005.
2. Bəylərov E.B. "İstedadlı uşaqlarda təlimin təşkili və məzmunu". Bakı, 2016.
3. Bəylərov E.B. "İstedadın psixoloji təminatı". Bakı, 2008.

**M. Bayramov**

## Отношение талантливых детей к обучению

## Резюме

Когда талантливые дети добираются до школы, они сталкиваются с разными парадоксами, особенно важными, причем два из них особенно важны. Первый парадокс формируется на фоне неадекватных успехов в обучении. Второй парадокс основан на отношении учителей к одаренным детям и их социально-психологическим качествам. Типология успеха талантливых детей (неудача) еще не систематически изучалась.

В современной психологии переподготовка анализируется с точки зрения способности к обучению, и ее корни, в первую очередь, ищут интеллектуальную деятельность ученика. Академическое достижение ученика напрямую отражает уровень его познавательной деятельности. Выход на тренинг - это, прежде всего, обусловленная когнитивной деятельностью. В этой современной психологии этот важный факт анализируется с точки зрения личности. Суть проблемы состоит в том, что невозможно раскрывать суть переподготовки в обучении без учета отношения ученика к этому внимательному аспекту идентичности.

**M. Bayramov**

## The attitude of talented children to the training

## Summary

When talented children get to school, they come across different paradoxes. Two of them are especially important. The first paradox is formed in the background of inadequate training successes. The second paradox is based on the attitude of teachers to talented children and their socio - psychological qualities. The typology of talented children's learning success (failure) has not yet been systematically studied.

In modern psychology, the retraining is analyzed in terms of learning ability, and its roots, first of all, are looking for the student's intellectual activity. The academic achievement of the student reflects the level of his cognitive performance directly. Leaving in training is, first of all, conditioned by the cognitive performance. In this modern psychology, this important fact is analyzed in terms of personality. The essence of the problem is that it is impossible to disclose the essence of retraining in the training without considering the attitudes of the student to this attentive aspect of identity.

**Redaksiyaya daxil olub:** 22.12.2017